*Akademik Tarih ve Düşünce Dergisi* *Academıc Journal of History and Idea*

*Cilt:IV /Sayı:XII /Ağustos /MMXVII* *Volume:IV /Number:XII /August /MMXVII*

*ISSN:2148-2292.*

***АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ***

***Hummatova / atdd / 0000-0001-5426-5766***

# Hacı Bayram Vəli Şeirlərində Özünüdərkin Struktur Troyektoriyası

***Xuraman Hummatova****

***ORCID/ 0000-0001-5426-5766***

## *Xülasə*

*XIV əsr Türk təsəvvuf şeirini yaranmasında və inkişafında böyük rolu olan övliya şairlərdən biri də Hacı Bayram Vəli (1352-1436 ) olmuşdur. Onun yaratdığı təsəvvuf məzmunlu şeirlər həm özündən əvvəl yaranan (Yunus Emre) təriqət poeziyasından bəhrələnmiş, həm də özündən sonra yazıb –yaradan həm də (Məsələn: Yazıcızadə Məhəmməd Əfəndi hocasını öyərək deyirdi: Cihanın kutbi mahı Hacı Bayram, Cihanın şeyhi, şahı Hacı Bayram) təsəvvuf şeirinə güclü təsiri olmuşdur Hacı Bayram Vəlinin ünlü bir övliya olacağını hələ şairin dünyaya gəlməzdən əvvəl haqqında yaranan yarıhəqiqət, yarırəvayət olan məlumatlardan görürük. Bu rəvayətlər sonradan həqiqətə çevrilərək haqqa doğru yolçuluq edən övliya şairin əməllərində gerçəkləşdi. Poeziyasında təsəvvuf əhlinin özünü bilməsi ideyasını*

* *Doç. Dr., AMEA, hummatovax@mail.ru*

*ISSN:2148-2292.*



***Hummatova / atdd / 0000-0001-5426-5766***

*təbliğ edən şair şeirlərinin birində deyir: "bilmək istərsən səni, can içrə ara canı, Keç canından bil onu, sən səni bil, sən səni" Təsəvvuf əhlinin kodlaşmasında ən mühüm olan amillərdən biri və birincisi özünü bilməsidir. Belə bir aforizim də var ki, "kəndini bilən, rəbbini bilər" prinsipi təsəvvuf elmində əsasın əsasıdır. Həyatı boyunca haqqa doğrü yolçuluq edən şair seyri-süluk boyunca təsəvvuf traktoriyası üzrə hərəkət etmişdir. O, təsəvvuf elminin, sirlərini (şəriət, təriqət, mərifət, həqiqət) mükəmməl bilmiş və həyatı boyunca onlara əməl etmişdir. Həyatından məlum olur ki, bir pirdən dərs alması, bir dərgaha qoyub getdiyi təriqətin sonradam davamçılarının yetişməsi, şairin haqqa doğru yolçuluğunun məziyyətlərini bizə göstərir. Mütəsəvvuf şair bunların bəzilərini əməli işlərlə yerinə yetirirdisə, bəzilərini isə, yəni Qurani-Kərimin ideyalarını şeir dili ilə insanlara sevdirirdi. "Ey könul, tərk eylə sivayi maksudi aksayi gör, Li məallah sirrinə ir mətləbi əl ayi gör" deyən şair könlünə müraciət edərək, artıq ilahi mətləblərin sirrindən agah olmasını ona tövsiyə edir . Şairin yaradıcılığına arşdıran mütəxəsislər haqlı olaraq onun şerilərini bir qisminin Yunus Əmrə təsirindən yarandığını göstərirlər. Hacı Bayram Vəlinin bəzi şeirləri var ki, onların ifadə tərzi Yunusun şeirləri ilə üst-üstə düşür. "Çələbim bir şar yaratmış iki cihan arasında" misrası ilə başlayan şeiri Yunusun "Bu dünyanın məsəli bir ulu şara bənzər" misrası ilə başlayan*

*şeiri ilə səsləşir.*

***Açar sözlər:*** *Hacı Bayram Vəli, salık, Yunus Əmrə, təsəvvuf,*

# Structural Trajectory of Self-Understanding in Hadji Bayram Velis Verses

***Xuraman Hummatova*****

***ORCID/ 0000-0001-5426-5766***

***Abstract***

*Hadji Bayram Veli(1352-1436 ) was one of saint poets, that played a major role in emergence and development of XIV century Turkish tasawwuf poetry. Tasawwuf content verses created by him derive benefit from previous tasawwuf poet's poetry and also have a strong imfluence on further mythical poets.(forexample:Yazichizadeh Muhammed Afendi boastingly says about his master. Pole of Universe is Hadji Bayram King and sheykh of Universe is Hadji Bayram.)*

*It was predicted that, Hadji Bayram Veli would become a famous saint in halftrue, halflegendary knowledges that were occured long before his birth. These legends became true and realized in poet's actions, who goes toward Truth.In his verse poet populirazed idea for tarikat people of recognizing oneself*

** *Doç. Dr., AMEA, hummatovax@mail.ru*

ISSN:2148-2292.



*and he said: If you want to know yourself, seek soul inside your soul, Leave behind your body, find it, know yourself, know yourself.*

*In encoding of tarikat people a first most important factor is recognizing oneself. There is an aphorism, that "Whoever recognizes hisself, would recognize his Rab (Allah)" and this is main of basis of tasawwuf. Poet, during all his life goes toward Truth,in his salik always follows trajectory of tasawwuf principles. He perfectly knows all secrets otasawwuf science (shariat, tarikat, marifat, hagikat) and always follows them. From his lifepath knowledges we could learn, all advantages of his Truth searching path by informations about his training in one dergah, his closeness with that dergah, created a sect, growed number of followers of sect created and leaved behind by him. Part of it sufi poet fulfilled through his actions,while another part he accomplished by endearing ideas of Qur'ani-Kerim through poetry language.In one of his verse poet advised referring to his soul that,already needed to be aware of divine aspirations secrets.*

*Specialists researched poet's creativity rightly suppose,that part of his verses was created under Yunus Emre's impact. Some of Hadji Bayram Veli's verses are quite similar in expression manner with Yunus Emre's poetry. His verse which begins with hemistich My God created one ball between two universes- has something in common with Yunus's verse, which begins like*

*This world's adage is like a great ball.In this article will be researched stages of poet's path toward Truth.*

***Keywords:*** *Hadji Bayram Veli, Yunus Emre, salik, tasavvuf*

## Giriş

Təriqətlərin yaranmasında, formalaşmasında Ərdəbil və Xorasan ədəbi məktəblərinin böyük rolu olub. Belə ki, Anadolu ərazisində Bayramiyyə təriqətinin yaranmasında və formalaşmasında Hacı Bayram Vəlinin əsas rolu olmuşdur.İslam sivilizasiyası hadisəsi kimi meydana çıxan təsəvvuf sonralar islam mədəniyyətinin ideoloji balansına çevrilmiş və öz funksiyasını uzun əsrlər boyu davam etdirmişdir. Bildiyimiz kimi təsəvvufün tədris və təlim strukturu XII əsrdə ortaya çıxan təriqətlərlə daha mükəmməl gerçəkləşmişdir. Türk təsəvvuf ədəbiyyatının və təriqət şeirinin formalaşmasında böyük rolu olan Hacı Bayram Vəli türk islamının yaranmasında və yayılmasında ünlü bir sənətkar kimi millətin yaddaşında özünə yer tapmışdır. Onun bizə gəlib çatan şeirlərində özündən əvvəl yaşayıb – yaratmış Yunus Əmrənin təsiri görünməkdədir. Türk təsəvvuf ədəbiyyatında Yunus qədər böyük rolu olan Hacı Bayram Vəli türk islam poeziyasının inkişafına yol açan bir təriqət əhli olmuşdur.

XIV. əsr Türk təsəvvuf şeirini yaranmasında və inkişafında böyük rolu olan övliya şairlərdən biri də Hacı Bayram Vəli (1352-1436) olmuşdur. Bəzi mənbələrin yazdığına görə o, 1352 –ci ildə Ankarada Solfasol kəndində Əhməd adlı bir iman əhlinin ailəsində dunyaya gəlmişdir. Əsl adı Numan olan bu övliya insan hələ dünyaya gəlməzdən əvvəl atası yuxusunda bir röya görür. Röyada atasına " Ey Əhməd, dünyaya gələcək oğlunun adını Numan qoy və onu oxut ki, Allahın fəzilətləri və inayəti sənin və oğlunun üzərində olsun, bundan sonra həmin şəxs qucağındakı bir yığın kitabı ona verib, yox olur".

Yuxudan oyanan ata buna görə də dünyaya gələcək uşağa Numan adını qoyur. Şairə Bayram adının verilməsi isə Hamidi Aksaraylı tərədindən olmuşdur. O, şairə " iki bayramı bir arada yapdıq", sənin bundan sonra adın "Bayram" olsun. Müxtəlif mənbələrdə bu rəvayətlə bağlı rəngarəng fikirlər var. Təskirə yazanlardan İbrahim Has bu hadisə ilə bağlı belə yazır: " Deyirlər ki, Hacı Bayram bir gün Şeyx Hamidin hüzuruna gəlir. Şeyx ondan gəlməsinin səbəbini soruşur. Hacı Bayram isə, hər şeyi buraxıb sizə gəldim , müridiniz olmaq istəyirəm, demişdir . Şeyx Hamidi isə cavabında , get hər şeyi- adını da unut! Bu hadisədən sonra o, Şeyx Hamidinin yanına gəlir. O gün də hacılar bayramı imiş, buna görə də şeyx "bayram bayrama qarışıb" deyir və bu gündən etibarən sənin adın Bayram

olsun, demişdir.[1] Bu haqda A.Erdoğan yazır: "Bursada çilləxanasının yanında yapdırdığı ekmek fırınında somun pişirb çarçı pazar dolaşaraq "Somunlar müminlerin" nidası ilə insanlara ekmek dağıdır. Bu sebeple Şeyx Hamidi Veli hezretleri halk arasında "Somuncu Baba "olaraq tanınır.[2]

Hacı Bayram Vəli haqqında yazan mənbələr onu ilahi sirlərə vaqif olan, qeybdən xəbər verən, kəramətlər göstərən bir iman əhli olduğunu yazırlar. Hətta onun belə övliya olmasından dövrünün hökmdarları qorxmış, ona qarşı çıxa bilməmişlər. Bu övliya haqqında məlum olan bir rəvayət də var ki, "Ey sultan, "Qövsi-əzəm" bu şəhərdə ikən, bu hizmət bizə münasib deyil".

Somucu baba adı ilə tanınan Şeyx Hamiddin Hacı Bayramın mürşidlərindən biri olmuşdur. Onu "Qövzi- əzəm" adlandırmışlar. Hacı Bayram Vəli öz mürşidi ilə Hac ziyarətinə getmiş və o, öləndən sonra onun təriqətinin nəşrinə başlayır.[3]

Hacı Bayram Vəlinin ünlü bir övliya olacağını hələ şairin dünyaya gəlməzdən əvvəl haqqında yaranan yarıhəqiqət, yarırəvayət olan məlumatlardan görürük. Bu rəvayətlər sonradan

[1]Refik Turan, Fatma Turan, Abdulkerim Erdogan, Horasanı Anadoluya, Anadolunu Balkanlara bağlayan menevi önder Hacı Bayram Veli., Böyükşeher Belediyyesi, Ankara 2011, s.141.
[2]Abdulkerim Erdoğan. Ankaranın manevi mimarı Hacı Bayram –i Veli. Ankara Büyükıeher Belediyesi. Ankara 2015, s.34.

[3] Nurgül Karaca, Hacı Bayram Velinin aşikler üzerindeki etkisi, Ankara 2011,s.10.

ISSN:2148-2292.



həqiqətə çevrilərək haqqa doğru yolçuluq edən övliya şairin əməllərində gerçəkləşdi. Bu övliya şair haqqında yaranan rəvayətlərin biri də bu idi ki, o, dünyaya gəlməmişdən əvvəl anası bətnində "Allah, Allah" kəlməsi eşidilərmiş.[4] Şair haqqında yaranan bu rəvayətlərdən məlum olur ki, dünyaya gələcək uşağın qeyri-adi taleyi olacaq və bununla da o başqalarından fərqlənəcəkdir. Ədəbiyyatda biz belə möcüzəli doğuluş hadisələrinə - Oğuz xaqanın möcüzəli doğuluşunda, Dədə Qorqud qəhrəmanlarının sonradan ad almaları üçün bəzilərinin göstərdiyi möcüsəli hərəkətlərə rast gəlmişik. Hacı Bayramın Vəlinin Mehmet Fatihin İstanbulu alacağını bildiğini və qeyb aləmindən bu xəbərin ona bəlli olması artıq o dövrdə rəvayət kimi dillərdə dolanmaqda idi. Bu haqda şair öz dördlüklərinin birində yazır.

Hər konuda üstün qələb çalan ,

İstanbulu Fatih alacaq bilən.

Hörmətlə nefsindən çox şeyler silen,

Ankara'da Hacı Bayram Vəlidir.

Mütəsəvvuf şairin həyatının müəyyən mərhələsi onun təhsili ilə bağlı olub. O da məlumdur ki, Hacı Bayram Vəli ilk təhsilini Solfasolda almış, amma onun harada və kimdən mükəmməl təhsil alması haqqında dəqiq məlumatlar yoxdur. O dövr bilim adamlarının ərəb və farsca təhsil almaları ən önəmli faktlardan biridir. O da bir həqiqətdir ki, ərəb dili bir dil olaraq Qurani-Kərimin

[4]Benekay Yahya. Hacı Bayram Veli, İstanbul 1996, s. 21-22; Turan, 2004, s.20 .

*ISSN:2148-2292.*



dili adlanır, həm də onun sirrlərinə vaqif olmaqda insanlara bələdçi rolunu oynayırdı. Hacı Bayram Vəliyə də ərəb dilini öyrədən hocası Şeyx İzzətdinin olduğu güman edilir. Allah ondan razı olsun. Başqa bir rəvayətdə isə onun müəlliminin Həllac Mahmud Əfəndi olduğu da güman edilir. Çünki Hacı Bayram Vəli həmişə onun türbəsinin yanından keçərkən ona hörmət əlaməti olaraq ayaqqabılarını çıxararmış. Ondan bunu nəyə görə etdiyini soruşduqda, "burada mənin hocam uyuyur,"- deyə cavab verərmiş.[5]

Şairin yaradıcılığından məlum olur ki, o, mükəmməl təhsil almış, öz zamanının bütün elmlərinə sahib olmuş, həm zahiri elmləri, həm də batini elmləri mükəmməl bilmişdir. Bunlarla bərabər Hacı Bayram Vəli dini elmləri – təfsir, hədis və fiqh bilmiş bunların sayəsində Qurani-Kərimin sirlərinə bələd olmuşdur. Təsəvvuf əhli olan şairin şeirlərindən ğörünür ki, o şəriətin metod və prinsiplərinə, qayda və qanunlarına tabe olmuş, onları həm əməli, həm də praktik şəkildə yerinə yetirmişdir.

Bununla bağlı dördlüklərinin birində şair yazır:

Hər zamanın fənn bilimi

Tefsir, hadis, fıkıh elmi

Tahsil etmiş zaman dilmi

Kur'an Hacı Bayram Veli

[5]Şahin Kamil. Hacı Bayram Velinin müderrisliği ve Melike hatun medresesi. I.Hacı Bayram Veli Sempozyumu Bildirileri. Ankara 1990, s.121.

*ISSN:2148-2292.*



Buradan onun hansı elmlərə yiyələnməsi şairin öz dilində səsləndirilir. Deməli, haqqa doğru yolçuluq edən şair onun mərhələ və məqamlarını dəqiqliklə bilmiş, şəriət qanunlarını mütəmadı olaraq yerinə yetirmişdir.

Hacı Bayram Vəlinin dördlüklərindən o da məlum olur ki, özündən əvvəlki sələfləri kimi o da irşada girməzdən əvvəl bişmədiyini, yanmadığını vurğulayır. Sufı şairlərinin öz pirindən dərs alması, onun dərgahında illər uzunu qulluq edərək itaətdə olması, onların "Bişməsi" kimi dəyərləndirilir. Bu fakta ilk dəfə Əhməd Yəsəvi, Mövlana, sonra isə Yunus Əmrə yaradıcılığında rast gəlirik. Əhməd Yəsəvinin "ateşe düşmeden pişdim ben"deməsi ideyasından qaynaqlanaraq, Yunus da illər uzunu mürşidi olan Tapdıq Əmrənin dərgahına odun daşımış, qırx il susmuşdur. Şeyxinin dərgahında "Bişəndən" sonra nəsibini almış və ilahilər söyləməyə başlamışdır. Bu faktla bağlı

Yunus Əmrə demişdir:

Tapdığın tapısında qul olduq qapısında,

Muskin Yunus çiy idi, bişdi əlhəmdürüllah (116).[6]

Yunus Əmrənin "çiy idim, bişdim" deyimi, "Mövlanənin" "Xam idim, yandım, bişdim" kimi məşhur kəlamı da Əhməd Yəsəvinin "ateşe düşmeden pişdim ben" kəlamını yadımıza salır.

[6] Gölpınarlı Abdulbaqi. Yunus Emre. Risalat el-Nushiyye ve Divan. Turizm ve Tatıtma Dernegi Yayını, İstanbul 1965, s.116

*ISSN:2148-2292.*



Hacı Bayram Vəli də sələfləri kimi " Yandı bu könlüm, yandı bu könlüm, Yanmada dərman buldu bu könlüm" idafəsində, şair artıq dərdinə dərmanı yanmasıda olduğun, tapdığını deyən şair irfana girdiyini, haqq sirrinə vaqif olduğunu, haqqın sirlərinə yetdiyini oxucusuna bəyan edir. Dördlüyün ikinci bəndində şair məcaz yolundan istifadə edərək könlünü özünü şəmin alovunda fəda edən pərvanə ilə müqayisə edərək deyir:

Yan ey gönül, yan ey gönül, yan,

Yanmadan oldu dərdinə dərman.

Pərvanə kimi, pərvanə kimi

Şəminə eşqin, yandı bu könlüm. (308)[7]

Pərvanə kimi şəmin eşqinə yanan aşiq fənafillah halındadır. Pərvanənin özünü oda atması "şam və pərvanə" arasındakı bağlılıq əsrlər boyunca şair və yazıçıların diqqət mərkəzində olmuşdur. Şairlər bu iki varlığın əlaqəsindən müxtəlif bənzətmə və simvollar yaradaraq, onlar arasındakı bağlılığı həm həqiqi, həm də məcazi mənada işlətməklə bəşəri və ilahi eşqi dilə gətirmişlər. Şair şeirlərini birində deyir: Eşqinə könül verən bulsa əcəb degil murad, Çün cemalin şümi Hakkdır, əhli Hakk pervanəsi[8]

Şəm, şam ərəb dilindəki mum, çıraq, qəndil, alov mənalarını ifadə edir. Şəm bəzən bu ifadələrlə yanışı "günəş"

[7]Refik Turan, Fatma Turan, Abdulkerim Erdogan, Horasanı Anadoluya,Anadolunu Balkanlara bağlayan menevi önder Hacı Bayram Veli, Böyükşeher Belediyyesi, Ankara 2011, s. 308.

[8]Erdogan,HorasanıAnadoluya,Anadolunu Balkanlara..............s. 309.

*ISSN:2148-2292.*



mənasında da işlənməkdədir. Belə ki, ədəbiyyatda şəmi – asiman, şəmi – afitab, şəmi – çıraq kimi ifadələr "ay" anlayışını da içinə alaraq, "şəmi – felek", "şəmi – alemitab" və s. kimi adlarla işlənərək poetik fuksiya daşıyır. Təsəvvuf poeziyasında isə istiarə yolu ilə Allaha «semi la-yezali» deyilməkdədir. Salikin qəlbini yaxan ilahi nurun prarıltısı, inam əhlinin qəlbində yanan, parlayan irfan nuruna da "şəm" deyirlər. İrfan əhli Qurana da "şəmi–ilahi" deyərək onu poetikləşdirir. Deməli, şəm və yaxud şam sözü təsəvvuf mənaları da danımaqdadır. Belə ki, təsəvvuf poeziyasında, "şəmi-Hak" və ya "şəmi-Xuda" kimi ifadələrdə "Allahın nuru" mənası başa düşülür. Təsəvvuf ədəbiyyatında nurun, işığın müxtəlif qaynaqları göstərilir. Bunlar hamısı da qəlbdə təcəlla edir və çıraq, şəm, məşəl şəklində dilə gətirilir. Əslində müxtəlif mənalarda təcəlla edən bu nur qəlbin özüdür. Belə ki, İmam Qəzəli şəmi "iman" deyə simvolizə edir, "qəlbdə təcəlli edən iman işığı ilə qəlb (könül) çırağa, şəmə, məşələ dönmüşdür Bu mənada (qəndil) qəndil, simvolu Quranın (nur) 24 surəsinin 35 ayətində deyilir. "Allah göylərin və yerin nurudur. Onun nuru içində çıraq olan bir taxçaya bənzər; taxçadakı o çıraq bir qəndilin içindədir". Mütəsəvvuf şairlər şəmi iman işığı ilə də müqayisə edirlər:

Əvvəla deniş idim şəmi cəhan

Ondan murad olmuşdu zatil-iman.

Buna görə də pisliklərdən təmizlənən

*ISSN:2148-2292.*


***Hummatova / atdd / 0000-0001-5426-5766***

insan qəlbində iman işığı yanmaqdadır. Bu nur işığı da insanın qəlbinə Allahdan gəlir. İşıq kimi göstərilən "şəm" obrazının qaynağı çox qədimlərə gedib çıxır. Belə ki, hələ nağıllarımızda rast gəlinən, "qaranlıq dünya", "işıqlı dünya" anlayışı, Avesta kitabının əsas ideyası olan, qaranlıqla işığın mübarizəsi, yaxşılıqla pisliyin mübarizəsi, ulduzların günəş ətrafında fırlanması kimi ideyalar "şam" anlayışı ilə simvollaşır.

Təsəvvuf poeziyasında pərvanənin şəm ətrafında dövrə vurub özünü atəşdə məhv etməsi üç mərhələdən keçərək gerçəkləşir. Belə ki, pərvanə işıqdan doymaz, bu meyil onun maddiyata bağlılığını, ikinci bir halda o öz qürununu göstərir, nə qədər şəmin işığı, alovu artsa da, bu onu qorxutmur. Ən nəhayət, atəşdən doymayan pərvanə çılğın bir halətlə özünü alovlar içinə ataraq, alovda məhv edib, yox olur.

Pərvanəni şəmə sövq edən ən başlıca səbəblərdən biri şəmin işığıdır, bu zaman gerçəyin bilinməsi – ilmül-həqitqət anı, sonra isə onu cəzbə sövq edən səbəblərdən biri də şəmin istiliyidlir; bu an da gerçəyin gerçəyidir, yəni həqiqətül-həqiqət, alova düşüb qeyb olan an isə gerçəyin özüdür, yəni həqqül-həqiqətdir. Buna görə pərvanə, həqqül-yakin olur. Alova qarışıb yox olur. Şamla pərvanə arasındakı bağlılığı eşq reallaşdırmışdır. İlahi eşqə də pərvanə fəna-fillah mərtəbəsinə çatır. Şəmin bu mərtəbəyə çatması öz tanrısına çatan salikin fəna halınla

olması kimi reallaşır. Şair başqa bir beytində deyir:

Varlığın məhv eyləyib tərk et vücüdun aradan, Nicəsi tezcək bulur sen hüzreti Mövlayı gör. (308)

Təsəvvufin məqam və mərlələlərini adlayan şair artıq seyri-sülukdadır. Öz varlığını tanrı qatında əridən şair orada "gerdi sivayi buldu bu könlüm" deməklə, aradığını tapdığın, gercəyi bulduğunu vurğulayır. Şairin bu hal vəziyyəti təsəvvuf əhlinin seyri- sülükda olması, haqqa doğru yolçuluğu kimi dəyərləndirilir. Ayşe Yildirim yazır: "Eşrefoğlu Rûmî, manevi eğitimini tamamlayıp, halife olunca şeyhi Hacı Bayram-ı Veli'ye "Sultanım, seyri sülukun tamamı şimdiki makamımız mıdır yoksa daha var mıdır" diye sorar. Hacı Bayram-ı Veli'nin verdiği cevap şöyledir: "Bir velinin bin sene ömrü olsa, envâr-ı mücâhedât ve riyâzât eylese, henüz enbiyâdan birisinin kademi (ayağı) vardığı yere, velinin başı varmak muhaldir."[9]

Bu məqam halında olan şair artıq seyri-billah halındadır, orada isdədiklərini tapmışdır. Odur ki, dördlüklərinin birində şair deyir.

Seyri billahdır, seyri billahdır,

Li məllahdır, li məllahdır.

Ayinəsində ayinəsində.

Gerdi sivayi buldu, bu könlüm. (308)

Hacı Bayram Vəlinin yazdığı təsəvvuf

[9]Ayşe Yıldırım. Hacı Bayram Veli ve Tasavvufi Görüşleri. Basılmamış Yüksek Lisans Tezi Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü, Adana 2008, s.255.

məzmunlu şeirlər həm özündən əvvəl yaranan (Yunus Emre) təriqət poeziyasından bəhrələnmiş, həm də özündən sonra yazıb –yaradan və bayramiyyə təriqətinin davamçılarından olan Şeyx Mecdüddin Bayramiyə təsiri olmuşdur: Taliba gel Hacı Bayramilərə, Ta bilesin derdine derman nədir?[10] (Məsələn: Yazıcızadə Məhəmməd Əfəndi hocasını öyərək deyirdi: Cihanın kutbi mahı Hacı Bayram, Cihanın şeyhi, şahı Hacı Bayram) təsəvvuf şeirinə güclü təsiri olmuşdur. Poeziyasında təsəvvuf əhlinin özünü bilməsi ideyasını təbliğ edən şair şeirlərinin birində deyir: " bilmək istərsən səni, can içrə ara canı, Keç canından bil onu, sən səni bil, sən səni" Təsəvvuf əhlinin kodlaşmasında ən mühüm olan amillərdən biri və birincisi özünü bilməsidir. Belə bir aforizim də var ki, " kəndini bilən, rəbbini bilər" prinsipi təsəvvuf elmində əsasın əsasıdır. Həyatı boyunca haqqa doğrü yolçuluq edən şair seyri-sülükü boyunca təsəvvuf traktoriyası üzrə hərəkət etmişdir.

İlm-i tasavvufu sizde okudum

Aradım o Hakk'ı sizlerde buldum

Erfani der sizde kaldı umudum

Verdiğin öğütler başım üstüne

## Sonuç

Hacı Bayram Vəli təsəvvuf elminin sirlərini (şəriət, təriqət, mərifət, həqiqət) mükəmməl bilmiş və həyatı boyunca

[10]Mustafa Tatçı. Şeyx Mecdüddin Bayrami. Enes Basın Yayın ve Matbaacılık Ltd.Şti. İstanbul 2016, s.12.

onlara əməl etmişdir. Həyatından bir mürşiddən, pirdən dərs alması, bir dərgaha bağlanması, təriqət yaratması, qoyub getdiyi təriqətin sonradan davamçılarının yetişməsi, şairin haqqa doğru yolçuluğunun məziyyətlərini bizə göstərir. Mütəsəvvuf şair bunların bəzilərini əməlı işlərlə yerinə yetirirdisə, bəzilərini isə, yəni Qurani-Kərimin ideyalarını şeir dili ilə insanlara sevdirirdi. "Ey könül, tərk eylə sivayi maksudi aksayi gör, Li məallah sirrinə ir mətləbi əl ayi gör" deyən şair könlünə müraciət edərək, artıq ilahi mətləblərin sirrindən agah olmasını ona tövsiyə edir .

Şairin yaradıcılığına araşdıran mütəxəsislər haqlı olaraq onun şerilərinin bir qisminin Yunus Əmrə təsirindən yarandığını göstərirlər. Hacı Bayram Vəlinin bəzi şeirləri var ki, onların ifadə tərzi Yunusun şeirləri ilə üst-üstə düşür. "Çələbim bir şar yaratmış iki cihan arasında" misrası ilə başlayan şeiri Yunusun "Bu dünyanın məsəli bir ulu şara bənzər" misrası ilə başlayan şeiri ilə səsləşir. Buradan belə müəyyən etmək olur ki,şair özündən əvvəl yaşayıb –yaradan sənətkarların yaradıcılığına dərindən bələd olmuş və onlardan bəhrələnmişdir.

## Kaynaklar

TURAN, Fatma, TURAN, Refik, ERDOGAN,Abdulkerim,2011, Horasanı Anadoluya, Anadolunu Balkanlara bağlayan menevi önder Hacı Bayram Veli., Böyükşeher Belediyyesi Yayın evi, Ankara.

DOĞAN, Abdulkerim, 2015, Ankaranın manevi mimarı Hacı Bayram-i Veli. Ankara Büyükıeher Belediyesi, Yayın evi, Ankara.

KARACA, Nurgül, 2011, Hacı Bayram Velinin aşikler üzerindeki etkisi, Ankara.

YAHYA, Benekay, 1996, Hacı Bayram Veli, Turan, 2004 . İstanbul.

KAMIL, Şahin, 1990, Hacı Bayram Velinin müderrisliği ve Melike hatun medresesi, Yayınevi, I.Hacı Bayram Veli Sempozyumu Bildirileri, Ankara.

GÖLPINARLI, Abdulbaqi, 1965,Yunus Emre. Risalat el-Nushiyye ve Divan. Turizm ve Tatıtma Dernegi Yayını, İstanbul.

TURAN, Refik, TUR, Fatmana, Erdoğan, Abdulkerim, 2011,Horasanı Anadoluya, Anadolunu Balkanlara bağlayan menevi önder Hacı Bayram Veli, Böyükşeher Belediyyesi, Yayınevi, Ankara.

YILDIRIM, Ayşe, 2008, Hacı Bayram Veli ve Tasavvufi Görüşleri, Basılmamış Yüksek Lisans Tezi, Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü, Adana.

TATÇI, Mustafa, 2016, Şeyx Mecdüddin Bayrami, Enes Basın Yayın ve Matbaacılık Ltd.Şti, İstanbul.

*АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ*

*Hummatova / atdd / 0000-0001-5426-5766*